*Xalqımız özünün ziyalı oğullarından biri ilə də vidalaşdı...*
*Müstəcəb Muradov! Bu ad jurnalımızın daimi oxucularına yaxşı tanışdır.*



# TORPAQ NİSGİLİ, ÖVLAD DƏRDİ...

Müstəcəb Köçəri oğlu Muradov 1938-ci il oktyabrın 27-də Ağdamın Mərzili kəndində anadan olmuş, sonradan ailəsi ilə birlikdə qonşu Pirzadlı-İsmayılbəyli kəndinə köçmüş, uşaqlıq və yeniyetməlik illərini burada yaşamışdı.

1968-ci ildə ADU-nun jurnalistika fakültəsini bitirmişdi. Həmin ildən "Mədəni-maarif" jurnalına rəhbərlik edən M.Muradov ömrünün ən gözəl illərini, sözün əsil mənasında bu yolda "xərcləmişdi". Jurnalın nömrələrindən 91-nin işıq üzü görməsi məhz onun adı ilə bağlıdır. Say etibarilə o indiyədək jurnala rəhbərlik edən 6 redaktordan üçüncüsü və ən uzun müddət (23 ilə yaxın) çalışanı olmuşdur. "Mədəni-maarif"dən sonra ömrünün son günlərinədək Azərbaycan Dövlət Tibb Universitetində pedaqoji fəaliyyət göstərmiş, tələbələrə fəlsəfəni tədris etmişdi.

Vətən nisgili, övlad dərdi...

Müstəcib müəllim doğma kəndi Pirzadlı-İsmayılbəylidən hələ yeniyetməlik çağlarından Bakıya gəlmiş, öz zəhməti, çalışqanlığı sayəsində ictimai aləmdə bir naşir kimi tanınmışdı.

Sinəsində doğulduğu Qarabağın həsrəti, başaçıq, ayaqyalın körpəliyini yaşayarkən dolaşdığı doğma kəndinin xatirəsi... Zoğallı, narlı dərə, bənövşəli Dərəbağ, Nağı təpəsi, Qoşa qaraağac, suları minbir nəğmə çalan Mərzili arxı, neçə vaxtdan bəri ziyarətinə gedə bilmədiyi "Ələmağacı", anası Bəyim xanımın məzarı...

Ömrünün son anlarında görəsən Müstəcəb müəllim onlardan hansını daha çox arzulamışdı? Bəlkə toyunu görə bilmədiyi, vaxtsız itirdiyi yeganə oğul övladı Rəşad üçün darıxmışdı? Yoxsa istəkli övladına qovuşmaq üçün son mənzilə belə tez tələsmişdi?!

Vətən həsrətinin, yurd itkisinin ədalətsizliyinə dözməyən dünya şöhrətli alimimiz Xudu Məmmədov, şairlər Şahmar Əkbərzadə, Famil Mehdi, Müstəcib Muradov... Görəsən bu siyahıda daha hansı ziyalılarımızın adları çəkiləcək?

Doğma torpağına qovuşa bilməsə də, doğma övladına qovuşa bildi...

Allah rəhmət eləsin!

**Fazilə Qaraxanqızı**

***Redaksiyadan:*** ***Bu hüzünlü günlərində yaradıcı kollektivimiz və çoxsaylı oxucularımız adından mərhumun ailəsinin qəminə şərik çıxır, kədərini bölüşür, təskinlik üçün söz deməyə çətinlik çəkirik. Yaxşı bilirik ki, ən ali, ən şirin kəlmələr belə o ağır itkinin doğurduğu acını azaltmaq imkanından çox uzaqdır. Ancaq nə edəsən?! Nə yazıq ki, heç birimiz taleyin bu ədalətsiz, sərt yazılarını pozmağa qabil deyilik.***

***Bir təsəllimiz var! Yaxşı ki, sağlığında Müstəcəb müəllimi axtarmağa, həyatı ilə maraqlanmağa, haqqında jurnalımızda məqalə verməyə imkan tapmışdıq...***

***Allahdan mərhumun ailəsinə səbr və təmkin diləyirik. Başınız sağ olsun!***